# Haqq-ədalət, beynəlxalq hüquq bizim tərəfimizdədir



**Dünya özünün yeni reallıqlarını yaşayır. Biz məmnunuq ki, həmin reallıqların yaradılmasında gənc müstəqil Azərbaycan dövlətinin, müdrik Prezidentimiz İlham Əliyevin və rəşadətli Azərbaycan Ordusunun da özünəməxsus rolu vardır. Biz məmnunuq ki, otuz ilə qədər düşmən tapdağında qalmış torpaqlarımız işğaldan azad edilir. Biz həm də ona görə məmnunuq ki, cənab Ali Baş Komandanımızın bu uğurlarının təməlində ulu öndər Heydər Əliyevin siyasi kursunun əsas prinsipləri dayanır. Elə bu sətirləri də məhz xoş günlərimizdə ümummilli liderimizin titanik siyasi fəaliyyətinin bəzi cizgilərini yada salmaq üçün qələmə aldıq.**

## Heydər Əliyev:

## Şuşasız Qarabağ, Qarabağsız ümumiyyətlə Azərbaycan yoxdur



Azərbaycanın təxminən 50 illik dövrü böyük dövlət xadimi, mükəmməl strateq, fenomen şəxsiyyət ulu öndər Heydər Əliyevlə bağlıdır. XX əsrin 60-cı illərində Qarabağ məsələsi məkrli bir plan əsasında yenidən ortaya atılsa da ulu öndərin uzaqgörənliyi və prinsipiallığı nəticəsində qarşısı alınmışdır. Belə ki, "60-70-ci illərdə də erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər... bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam" söyləyən Heydər Əliyevin qətiyyəti nəticəsində yalan və iftiraçı erməni iddiaları iflasa uğramışdır.

Ulu Öndər Qarabağın geosiyasi tarixini, geoiqtisadiyyatı və mədəni-mənəvi həyat tərzini, orada tarixən yaşayan azərbaycanlı, eləcə də məskunlaşan erməni ailələrin keçmişini, birgə yaşayış münasibətlərini akademik səviyyədə bilir və Qarabağın inkişafı, abadlaşdırılması istiqamətində bütün sahələr üzrə işlər aparırdı. Heydər Əliyev hələ Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin sədri olduğu zaman ermənilər 1967-ci il iyun ayının 24-də Xankəndidə küçələrə ermənicə 300-dək vərəqə yaymışdılar. Saxta və uydurma sovinizmə söykənən, yalan erməni tarixini əks etdirən bu vərəqələrdə Dağlıq Qarabağın Ermənistan SSR-in tərkibinə verilməsi təbliğatı gedirdi. Təbii ki, mükəmməl kəşfiyyatçılıq keyfiyyətləri olan Azərbaycan DTK-sının milli təfəkkürlü generalı Heydər Əliyev həmin vərəqələrin müəlliflərini tapdırıb, ciddi cəza verdirmişdi.

Digər bir fakt isə ondan ibarət idi ki, 1967-ci ildə erməni millətçiləri bir ermənini öldürmüş və bu cinayəti iki azərbaycanlının üzərinə atmışdılar. Onların məhkəməsində isə həmin azərbaycanlıları öldürmüşdülər. Məqsəd milli münasibətləri qızışdırmaq, qarşıdurma yaratmaqla yerli əhalini köçürüb, Qarabağın Ermənistana birləşdirilməsinin bünövrəsini yaratmaqdan ibarət idi. Və... nə yaxşı ki, qismət böyük Heydər Əliyevi Azərbaycanın taleyinə yazmışdı. Ulu öndər şəxsən Xankəndinə gedərək, on beş günə bu prosesin qarşısını öz məharətli çevik müdaxiləsi ilə almışdı.

Ulu öndərin respublikamıza rəhbərliyinin birinci dövründə milli düşüncə, milli ruh, milli kimliyin oyadılmasında danılmaz xidmətləri olmuşdur. Tarixi Şuşanı çox sevən ulu öndər onun iqtisadi-mədəni inkişafı üçün böyük səylər göstərmişdi. Sonradan isə Sov. İKP MK Siyasi Bürosunun üzvü olarkən daim daşnakların "Ermənistana birləşmə" arzusunun qabağına sədd çəkmişdi.

Müstəqil Azərbaycanda ikinci dəfə hakimiyyətə gələn ulu öndər məhz etnik təmizləmə, təcavüz, soyqırımı, erməni millətçiliyi məsələlərinin əsl köklü mahiyyətini açmış və daşnakların "birləşmək arzularına" siyasi-hüquqi qiymət vermişdi. Beləliklə də, dünya ictimaiyyətinə ermənilərin terrorçuluq, işğalçılıq siyasətinin əsl mahiyyətini göstərmişdi.

Ulu öndər deyirdi ki, Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir qaladır, əziz bir abidədir.

Böyük dövlət xadimi Şuşanın ölkəmiz, Vətənimiz üçün xüsusi, vacib yeri olduğunu vurğulayaraq bildirmişdi: "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur". Hazırda Prezident İlham Əliyev də "Bayrağımız bütün işğal edilmiş torpaqlarımızda dalğalanacaq" – deyə bəyan edir.

"Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün hər bir döyüşə, hər bir vuruşa hazır olmalıyıq" söyləyən ulu öndər sanki uzaqgörənliklə dünəndən bu günə səslənib. "Bizim məqsədimiz müharibə etmək deyil, ordumuz ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını təmin etmək üçün lazımdır" – paradiqmal məntiqi günümüzün reallığıdır.

Məzarın nurla dolsun, böyük öndər! Siyasi varisin, eynən bənzərin olan Prezident İlham Əliyev 2020-ci ilin sentyabrında Azərbaycanda qismən səfərbərlik elan etdi və torpaqlarımızın azadlığı uğrunda mübarizəyə başladı. Sənin "Dünya bilməlidir, o cümlədən Ermənistan bilməlidir ki, biz heç vaxt torpaqlarımızın bir qarışını da heç kəsə verməyəcəyik" deyiminiz də həminn yadındadır. "Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpaqlarının, müstəqil Azərbaycan Respublikasının müdafiəsi yolunda İRƏLİ" ƏMRİ ilə başlanan Şuşaya yolumuz da "QARABAĞ Azərbaycandır!" nidamızla zənitlənir.

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək: "Mənim başa çatdıra bilmədiyim bütün işləri İlham Əliyev başa çatdıracaq" söyləmiş və onu siyasi varis elan etmişdi. Bu hadisə 2003-cü ilin payızında olmuşdu... Düz 17 il sonra isə, yenə payızda Prezident İlham Əliyev böyük strateq Heydər Əliyevin uzaqgörən dühasının sübuta ehtiyacı olmadığını təsdiq etdi və Ali Baş Komandan, cəsur sərkərdə olaraq işğalçı Ermənistanın yenidən atəşkəsi pozaraq torpaqlarımıza təcavüzünə qarşı Azərbaycan Ordusuna əks-hücuma keçmək əmrini verdi. Ulu öndər vaxtilə dünyanı gəzərək əlində Azərbaycanın xəritəsi hamıya Azərbaycanı – Qarabağı tanıdırdı. Hazırda isə Ali Baş Komandan İlham Əliyev dünyanın məşhur TV, KİV-lərinə "Qarabağ Azərbaycandır!" – deyə bəyan edir.

Azərbaycan torpaqları işğal edilsə də, ulu öndər Heydər Əliyev siyasi-ideoloji, hərbi-diplomatik təbliğatı dayandırmır və ölkədə ictimai-siyasi sabitliyi bərpa edirdi. 17 il sonra XXI əsr Azərbaycanın islahatçı, lider Prezidenti, həm də Ali Baş Komandan və Vətən Müharibəsinin Sərkərdəsi İlham Əliyev ümummilli lider Heydər Əliyevin başladığı yolu inamla davam etdirir. Prezident ilk öncə bu illərdə güclü ordu+güclü dövlət + güclü iqtisadiyyat strategiyası ilə vəhdətdə, azərbaycançılığa söykənən güclü xalq və kreativ, intellektual Azərbaycan vətəndaşı formulunda xalqın milli mənafeyini qorumağa, Azərbaycanda yaşayan bütün xalqların birgəyaşayış tərzinə hörmət amilini formalaşdırdı. Bu, ulu öndər ideoloji məktəbinin məntiqi yekunudur. Dövlət o zaman möhkəm olur ki, güclü Lideri olsun! Güclü lider də məhz güclü xalq formalaşdırır. Prezident İlham Əliyev güclü Azərbaycan xalqının güclü, çevik lideri, Ali Baş Komandanıdır.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinin uğurları bu illərdə səbrlə, soyuqqanlı diplomatiya ilə əldə olunub. Güclü liderin rəhbərliyi ilə bərpa edilən dövlət sərhədlərimiz, işğal altında qalan torpaqlarımızın azad olması ilə bahəm, həm də Azərbaycan xalqının özünə inamı qayıdır. Hər kəs güclü rəhbər – güclü Ali Baş Komandanla özünü qüdrətli hesab edir.

Bəllidir ki, istər fərd, istərsə fərdlər toplumu və ya xalq-millət özü-özünə hörmət – sayqı saxlamasa, ona heç kim hörmət bəsləməz. Cəsarətli, mübariz, qorxmaz, Vətənini, torpağının varlığını müdafiə edənlərin hörməti olur, sözü eşidilir, belə xalqlar həmişə sayılır və diqqət mərkəzində olur!

Möhtəşəm Azərbaycan Ordusu və Ali Baş Komandanımız – Qarabağı işğaldan azad edən İlham Əliyev Azərbaycanın fenomen xilaskarı, rəhbəridir. Fikrimi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!" diləyi ilə yekunlaşdırıram.

***Rəna MİRZƏZADƏ,***
***AMEA Fəlsəfə İnstitutunun şöbə müdiri, AMEA Qadınlar Şurasının sədri, professor***